# Libretto - Koroğlu
## Beş Məclisli Opera (1937)
## Üzeyir Hacıbəyov

*Mənbə: Üzeyir Hacıbəyovun irsinə həsr olunmuş HAJİBEYOV.com saytı*
*© 2001 Azerbaijan İnternational*
*Redaktə: Aynur Hacıyeva*
*Mətnin yığılması: Mərcan Abadi*
*Vebmaster: Arzu Ağayeva*

Xor: Bu gözəl təbi'ət bu şən mənzərə
Bir daha sə'adət verməz, bizlərə,
Sə'adət verməz
Sə'adət verməz
Sə'adət verməz, bizlərə,
Bizlərə
Bizlərə
Matəmə bürünmüş gözəl kəndimiz
Görünür bu dünyada yox bəxtimiz
Görmədik azadlıq üzü bir zaman,
Bizləri əzdi bəylər
Əzdi xan, əzdi xan, əzdi xan

Vəli (həyəcanla): Dönmüşdür zəmanəmiz cəhənnəmə,
Mənim də varlığım bürünmüş qəmə

Nadir: Həsən xan dünyanı dağıdır, didir,
Kəndləri talayir,
Xalqı incidir

Xor 1: Doğrudur, xanlarda yoxdur mərhəmət
Xor 2: Doğrudur, xanlarda yoxdur mərhəmət
Xor 1: Talanmış məmləkət, yanmış
Məmləkət

Xan bilməz insaf
İnsana cəbr edər
(Nadirə) Nadir, söylə görək daha nə xəbər?

Nadir (Nadirin başına yığılıb qulaq asırlar):
Həsən xan göndərmiş öz adamların,
Vəli: Öz adamların.
Nadir: Allahyar kəndçinin yarmış anbarın
Vəli: Yarmış anbarın
Nadir: Tamam aparıblar arpa buğdasın,
Qoyun, quzu, xoruz, toyuq, çolpasın,
Bir şeyi yoxidi bunlardan səvay
Nə qədri zülmüdür, nəqədri cəfa!
Xor: Nəqədri zülmüdür, nəqədri cəfa!

Vəli: Nə bəla gələcək görəsən yarın?
Belə getsə işi bizim xanların.
Nadir: Hər həftə başında bir xan ya paşa
Vəli: Bir xan ya paşa
Nadir: Qonaq gəlmiş olsa bu dağılmışa
Vəli: Bu dağılmışa
Nadir: Gedər var yoxumuz qonaqlar üçün
Oğul üşağımız qalar ac o gün
Bir ləzzət olmayır əzabdan səvay
Nəqədri zülmüdür, nəqədri cəfa!
Xor: Nəqədri zülmüdür, nəqədri cəfa!

Vəli: Nə bəla gələcək görəsən yarın?
Belə getsə işi bizim xanların
Bizim xanların
Bizim xanların
Bizim xanların
(Nadir və Vəli gedirlər)

Xor: Bu gözəl təbi'ət, bu şən mənzərə
Bir daha sə'adət verməz bizlərə.
Sə'adət verməz
Sə'adət verməz
Sə'adət verməz bizlərə
Bizlərə, bizlərə
Matəmə bürünmüş gözəl kəndimiz
Görünür bu dünyada yoxdur bəxtimiz
Xor 2: Xan

Xor 1: Görmədik azadlıq uzun bir zaman
Bizləri əzdi bəylər,
Əzdi xan, əzdi xan, əzdi xan
(Bir azdan Nadir və Vəli tam vahimə içində daxil olurlar)

Nadir: Həsən xan, Həsən xan, Həsən xanın adamları!
Vəli: Həsən xan, Həsən xan, Həsən xanın adamları!
Nadir: Həsən xan, Həsən xan, Həsən!
(İbrahim xan daxil olur)

İbrahim Xan (kəndlilərə):
Oğrular, quldurlar, kimdə var ixtiyar xan keçən yolları tozlaya oğrular!
Vurun, qovun, vurun, qovun!
(Fərraşlar qamçı və şallaxlarla kəndliləri döyürdər. Kəndlilər dağılırlar. Həsən xan öz adamları ilə daxil olur)

Həsən Xan: Qamçıdır saxlayan bu rə'iyyəti
Qamçısız yaşamaz xanın dövləti
Zülmə öyrənənlər sevməz mərhəmət
Zülmüsüz yaşamaz bizim məmləkət
Döyməsən, söyməsən, malın almasan
Dara çəkdirməsən, dama salmasan
Rə'iyyət bir daha xanı dinləməz
Həmzə Bəy: Xanı dinləməz
Həsən Xan: Malımın, canımın sahibi deməz
Həmzə Bəy: Sahibi deməz
Həsən Xan: İstəsən xanlığı, əzrə'iyyəti
Söylüyüb atalar bu vəsiyyəti, ah!
Qamçıdır saxlayan bu rə'iyyəti
Qamçısız yaşamaz xanın dövləti
Zülmə öyrənənlər sevməz mərhəmət
Zülmüsüz yaşamaz bizim məmləkət
Həmzə Bəy: Döyməsən, söyməsən, malın almasan
Dara çəkdirməsən, dama salmasan
Rə'iyyət bir daha
Həsən Xan: Xanı dinləməz
Həmzə Bəy: Xanı dinləməz
Həsən Xan: Malımın, canımın sahibi deməz
Həmzə Bəy: Sahibi deməz
Həsən Xan: İstəsən xanlığı, əzrə'iyyəti
Söylüyüb atalar bu vəsiyyəti
Bu vəsiyyəti
İbrahim xan, yüyür bu saatda ilxını hazır etdir əlbətdə

ilxıdan gərək bir at seçəsən söyləsin aləm afərin, əhsən
Görməmiş olsun öylə at insan

İbrahim Xan: Bu saət edərəm sərəncam

Həsən Xan: Xanların xanıyam, böyük bir xan
Yeddi min kəndə eylərəm fərman
Şöhrətim, dövlətim nəhayətsiz
Səltənət qurmuşam varım hədsiz
Səltənət qurmuşam varım hədsiz
(Həsən xan və yanındakılar ilxı olan tərəfə baxırlar)

Xor: İlxı qaçdı otlağa
İlxı qaçdı otlağa
(İbrahim xan əliboş qayıdır)

İbrahim Xan: İlxıdan qalmadı burda bir nişan
Qalmış yerində beş on cüt qulan
İlxıçı ilxını sürdü otlağa
Böyük cəza lazım o cür alçağa

Həmzə Bəy: Qəsdən bunu etmiş ol haramzada!
Həsən Xan: Qəsdən bunu etmiş ol haramzada!
İbrahim Xan: Qəsdən bunu etmiş ol haramzada!
Həsən Xan: Qəsdən bunu etmiş ol haramzada!
Həmzə Bəy: Qəsdən bunu etmiş ol haramzada!
İbrahim Xan: Qəsdən bunu etmiş ol haramzada!

Həsən Xan: Gətirin huzurə!
İbrahim Xan: Bu saət qurban!
Həsən Xan: Məl'unun qətlinə verərəm fərman!
İlxıdan ayrılmış beş on cüt qulan
E'tina etmərəm bunlara inan
Öylə at istərəm bilinsin zatı,
Ya Dağıstan atı, ya Ərəb atı
(İbrahim xan Alıni Həsən xanın hüzürüna gətirir)

Həsən Xan: Söylə qoca, məl'un bu nə, bu nə, bu nə Hilədir!
İlxını sürməkdə məqsədin nədir!

Alı: Ortada yoxidi heç bir məqsədim
Mən xana bir xidmət etmək istədim
Nəqədər cins at var seçdim, saxladım
Vallahi yoxumdur heç bir məqsədim
Billahi yoxumdur heç bir məqsədim

Həsən Xan: Heç mə’nası yoxdur
Yalan, yalan, yalan sözlərin
Aparın, çıxardın bunun gözlərin!
Tez olun, aparın, qoymuyun qala!

Alı: Xan, məni salma bu yaman hala!
(Alıni aparırlar)

Həmzə Bəy və tenorlar, Həsən Xan və baslar:
Döyməsən, söyməsən, malın almasan
Dara çəkdirməsən dama salmasan
Rə’iyyət bir daha xanı dinləməz
Malımın, canımın xanısan deməz
Sakitlik istəsən, əzrə’iyyəti
Söyləyib atalar bu vəsiyyəti
Bu vəsiyyəti
(Hamı çıxıb gedir)

(Nigar hövlnak səhnəyə daxil olur)

Nigar: Şərir Həsən xan, zalım Həsən xan
Cəllada verdi fərman
Fağır, günahsız, dilsiz, ağızsız
Alını etsin qurban
Kor etdilər
Yazıq Alını
Dağıtdılar
Bütün malını
Qəlbim yanır, odlanır mənim bu ahi nalədən
Gələr bir gün, gələr bir gün
Bu məzlum xalq verər cəza
Bu məl’un zülmükar xanlara
(Uzaqdan Alının ahı zarı eşidilir)

(Dağlara Rövşənin gələcəyi tərəfə baxır)

Bu eşq odundan yaralıyam mən
Gözümdə Rövşən, sözümdə Rövşən
Rövşən, Rövşən, Rövşən!
(Nigar Rövşəni xatırlayaraq fikrə gedir)

Rövşəndir dünyada məni yaşadan
Rövşən məni sevir
Məndə Rövşəni
Rövşən məni sevir
Məndə Rövşəni
Sevirəm
Sevmirəm varı dövləti

Ölsəm də saxlaram məhəbbəti
Rövşəni minlərcə cana verməRəm
Min bəyə, paşaya, xana verməRəm
Sevirəm
Sevirəm, sevirəm, sevirəm
Sevirəm, sevirəm, sevirəm, sevirəm səni
Əzizim Rövşən!
Sevirəm səni mən, səni mən, səni mən candan artıq Sevirəm
Rövşən
Rövşən
Rövşən
Əzizim, bu eşq odundan yaralıyam mən
Rövşən, sevirəm səni
Rövşən!
(Kəndlilər rəqs ilə gəlirlər)

(Nigar darıxaraq)

Rövşən gəlib çıxmadi
Gözləməkdən yoruldum
Ah, gəlirlər, gəlirlər, gəlir igit Rövşənim
(Kəndlilər çalıb, oynaya oynaya səhnəni doldurullar)

(Nigar onlara): Hanı bəs Rövşən?

Rövşən (pərdə dalından): Səni gördüm hey!
Hamı: Rövşəndir, Rövşən, Rövşən!
Rövşən: Səni gördüm hey!
Səni gördüm, aşıq oldum, dərdə saldın canımı
Ala gözlər, dadlı sözlər
Qara qaşlar, işvə nazlar
Can alan yar tökdü nahəq qanımı
Gözəlim gəl halımı sor rəhm elə
Nazlı yarım, gülüzarım, işvə karım, hey!
Nədir əmrim tacidarım, sərvərim
(Rövşən Nigara yaxınlaşır)
Ax Nigarım
Sevgilim nazlı dilbərim
Sevgilim
Sevgilim
Ayrı düşdüm səndən
Gəl görüm!

Nigar: Şərir Həsən xan, zalım Həsən xan
Cəllada verdi fərman
Dilsiz, ağızsız, fağır, günahsız
Alıni etsin qurban!
Kor etdilər yazıq Alını

Xor 1, 2: Yazıq Alı!
Nigar: Dağıtdılar bütün malını
Xor 1, 2: Yazıq Alı!
Nigar: Nə vaxta dək zalımın zülmü görməz intiqam
Nigar və Rövşən: Ax intiqam, ax intiqam!
Nigar, Rövşən, Xor 1, 3:
Gərək bu gün edək qiyam! alaq o xandan intiqam!
Xor 2, 4: Edək qiyam! Gərək bu gün alaq intiqam alaq o xandan, o xandan intiqam! intiqam!
Nigar və Rövşən: Ax intiqam, ax intiqam!
Nigar, Rövşən, Xor 1, 3:
Gərək bu gün edək qiyam, alaq o xandan intiqam!
Xor 2, 4: Gərək bu gün intiqam, edək qiyam, intiqam alaq o xandan, o xandan intiqam! intiqam!
Nigar və Rövşən: Ax intiqam!
Alı (səhnə dalından): Rövşən, Rövşən!
Nigar və Rövşən: Ax intiqam!
Alı: Rövşən, Rövşən!
Nigar və Rövşən: Ax intiqam!
Alı: Rövşən, Rövşən!
Nigar və Rövşən: Ax intiqam!
Nigar, Rövşən, Xor 1, 3: Alaq o xandan intiqam! alaq o Xandan intiqam!
Xor 2, 4: Alaq o xandan, o xandan intiqam, intiqam! Alaq o xandan, o xandan intiqam, intiqam!
Nigar və Rövşən: Yazıq atam!
Rövşən: Sənin qanın yerdə qalmaz!
Xor 2, 4: Bədbaxt oldu, bədbaxt oldu, bədbaxt oldu, Bədbaxt oldu, bədbaxt!
Xor 1, 3: Yazıq Alı kor oldu, bədbaxt oldu, bədbaxt Oldu, bədbaxt!

Rövşən: Görünür taqsırın varmış əlbət?
Alı: Ortada yox idi heç bir məqsədim.
Mən xana bir xidmət etmək istədim.
Nəqədər cins at var seçdim, saxladım,
Vallahi yoxumdu heç bir məqsədim
(Ağlayır) ha, ha, ha, ha, ha, ha, ha, ha!

Xor 1, 2: Nə qədər qulluq eyləsən
Xor 3, 4: Yolunda canından keçsən
Xor 1, 2: Yenə də axırda səndən razı qalmaz əsla
Nə bəy, nə xan, nə paşa, nə tacir, nə Ə’yan!

Alı: Oldun sən Koroğlu, oldun sən Koroğlu
Koroğlu, Koroğlu, Koroğlu, Koroğlu!

Rövşən: Təngə gəldik, yox tavan,
Əzdi bizi vəhşi xan,
Görmədik bir yaxşı gün hərgiz
Məhv edildik büsbütün.
Bəy, xan, paşa, mülkədar, yansın, batsın hər nə var
Qalxsın üsyan şö’ləsi.
Rədd olsun vəhşi bəy xan

Mən daima düşmənəm xanlara
Düşmən, düşmən,
Hər tərəfdən qanlar axsın sel kimi
Sel kimi, sel kimi, sel
Üsyan etmək, üsyan etmək!
Məhv eləmək
Xanı məhv eləmək
Onu məhv eləmək
Yoxsul xalqa nicat verəcək bir əlac varsa
Üsyan, üsyan!

Xor 1, 2: Hər bir yerdən, dağdan, daşdan, ormanlardan, insandan
Qalxsın üsyan, qalxsın üsyan hər ölkədən, hər yandan
Qoy rədd olsun, qoy qəhr olsun bəylər, xanlar, zalimlər
Qoy məhv olsun, qoy tərk olsun qəddar xa'in qatillər!

Koroğlu: Dağlar, daşlar, dağdaşlar arasına səngərlər çəkmək
Ordan saldırmaq, qırmaq, yıxmaq, yıxmaq, qırmaq
Xanları məhv eləmək!
Xor 1, 2: Məhv olsun, məhv olsun xanlar!
Nigar və Koroğlu: Üsyan, üsyan!
Nigar: Üsyandır son çarə, üsyandır son çarə, üsyandır
Son çarə, üsyandır son çarə!
Koroğlu: Üsyandan başqa yox çarə, üsyandan başqa
Yox çarə, üsyandan başqa yox çarə, üsyandan başqa yox çarə
Xor 1, 2: Üsyan, üsyan, üsyan, üsyan, üsyan, üsyan, üsyan, üsyan
Koroğlu və Nigar: Çarə üsyandır! Üsyandır, üsyandır son çarə!
Xor 1, 2: Üsyan, üsyan, üsyan, üsyan!

Koroğlu: Mənimlə gələn gəlsin gedək dağlara
Qalarsan burda Nigarım,
Olarsan mənə burda lazım.
Xanın əməllərindən məni xəbərdar edərsən
Səni tezliklə xilas edərəm mən
Sevgilimsən!
Mənimlə gedən gəlsin gedək!

Xor 1, 2: Qoy rədd olsun, qoy məhv olsun xanlar, bəylər zalimlər,
Qoy məhv olsun, qoy tərk olsun qəddar, xa'in, qatillər
Qatillər, zalim xa'inlər!
Rövşən, gedək!
(Hamı, Koroğlu başda olmaq üzrə Nigarla görüşüb gedirlər)

## İKİNCİ PƏRDƏ

Səhnə Həsən xanın qəbul salonunu göstərir və ən zəngin zinətlərlə bəzənmişdir. Həsən xan oturub fikrə dalmışdır, özü də Ehsan Paşanın vurudinə müntəzirdir.

Həsən Xan: Bu inqilab törədəni asardım mən öz əlim ilə!
(fikrə gedir)
Ehsan Paşa ilə barışmaq gərək
İttifaqa girib çalışmaq gərək
(Nökər Polad daxil olur)

Polad: Ehsan Paşa gəlir, yarı yoldadır.
Həsən Xan: Tədarük görün tez qabağa çıxın!
(sevinir)
(nökərlərə bir bir müraciət edərək)
Minaibriklərə şərab doldurun!
Minaibriklərə şərab doldurun!
Şərab doldurun!
Şərab doldurun!
Şərab, şərab
Şərab, şərab, şərab!
Şərab!
Payadaz döşüyün o gələn yola
Bəzənsin qadınlar, salsın qol qola
Geysin rəqqasələr taza paltarın
Paşaya göstərin ölkənin varın
Bütün adamları çağır, ver xəbər!
Onu aldadalım bəlkə bir təhər
Doğrudur düşmənik, neyləyim fəqət
İndi sülhə girmək eyni məsləhət, eyni məsləhət, eyni məsləhət…
Gərək axır qoyam bu üsyanlara
Hər gün bir müsibət doğur xanlara
Bütün adamları çağır ver xəbər!
Onu aldadalım bəlkə bir təhər
Doğrudur düşmənik neyləyim fəqət
İndi sülhə girmək eyni məsləhət, eyni məsləhət, eyni məsləhət
Gərək axır qoyam bu üsyanlara
Hər gün bir müsibət doğur xanlara
Minaibriklərə şərab doldurun!
Minaibriklərə şərab doldurun!
Şərab doldurun! şərab doldurun!
Şərab, şərab
Şərab, şərab, şərab
Şərab!
Payandaz döşüyün o gələn yola
Bəzənsin qadınlar, salsın qol qola
Geysin rəqqasələr taza paltarın
Paşaya köstərin ölkənin varın!

(Xanın adamları geyinmiş halda paşanı qarşılamağa yığılırlar)

(Nökər daxil olur)

Polad: Ehsan Paşa gəlir, əmriniz nədir?
Həsən Xan: Böyük ehtiramla qonağı gətir!
(Nökər çıxıb gedir)
(Ehsan Paşa öz Ə'yanları ilə daxil olur)

Xor 1, 2: Bizə xoş gəldin paşa
Dünya durduqca yaşa
Uzun illər sür dövran
Belə sür dövran
Uzun illər sür dövran
Uzun illər sür dövran
Səfa gəldin sən bizim ölkəyə
Sür belə bir dövran

Həsən Xan: Çox səfa gəlmisən! Ehsan Paşa həzrəti
Mən təqdir edərəm böylə hörməti
Ehsan Paşa: Mərhəbalar sənə möhübbətli xan
Möhübbət sənə bəslərəm hər zaman!
Həsən Xan: Bizim dostluğumuz olduğunca saf!
Ehsan Paşa: Olduğunca saf!
Həsən Xan: Yoxdur aramızda heç bir ixtilaf
Ehsan Paşa: Heç bir ixtilaf
Olmasın yerindən bir iki kəndim
Həsən Xan: Rə'iyyət dinc olsun
Ehsan Paşa: Bu sözü bəyəndim
Həsən Xan: Bu sözü bəyəndim
Həsən Xan və Ehsan Paşa: Bu sözü bəyəndim
Onu aldadalım bəlkə bir təhər
Doğrudur düşmənik neyliyim fəqət
İndi sülhə girmək eyni məsləhət, eyni məsləhət, eyni məsləhət
Həsən Xan və Xor 1, 2: İçək badəni bu şərəflərə
Həsən Xan: Gəlsin rəqqasələr, gəlsin rəqqasələr
Çalsın, oynasın!

## (RƏQS)

Həsən Xan: Əmr edin təlxək gəlsin bizi güldürsün, ha, ha, ha, ha, ha, ha, ha, ha!
(Hamı gülür, bir dəstə qoşun hissəsi içəri daxil olur)
Xor: Xan cənabları, xan cənabları!
Koroğlu, Koroğlu, Koroğlu!
Vergi yığdıq kəndlilərdən
Getdi aldı Koroğlu
Vurdu, döydü, yıxdı, əzdi, zərbə çaldı Koroğlu!
Dörd-beş illik vergiləri
Güclə, zorla döydük aldıq
Cəza çəkdik, dama saldıq
Başlar yardıq, nə var aldıq
Çox qızıllar, çox gümüşlər

Çox cavahir talan oldu
Viran oldu, badə getdi
Badə getdi, badə getdi, badə getdi, badə getdi, badə getdi!
Hər nə vardı xandan ötrü hədiyyə sovqət badə getdi
Həmlə etdi, zərbə çaldı qoşunlara Koroğlu
Əzdi tökdü, yaman günə saldı bizi Koroğlu
Qırdı bizi, lüt eylədi
Yamanca şil küt eylədi
Bir əlac edin, bu dərdə qalmışıq belə
Əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac!
Əlac edin, əlac edin, əlac edin, əlac edin, əlac edin!

(Təlxək içəri daxil olub soruşur, kimdir məni çağıran)

Həsən Xan: Da bəsdir!
(Həsən xan kənarə, Koroğlu!!!)
Koroğlunun çıxışları qəti tədbir istər
Ehsan Paşa: Koroğlunun çıxışları qeti tədbir istər
Həsən Xan və Ehsan Paşa: Əlac, əlac!
Həsən Xan (əskərlərə): Çıxın gedin!
(Qadınlara) çıxın gedin! qalsın bəylər, Ə’yanlar!
(Hamı dağılır, bəylərlə Ə’yanlar qalırlar)

Həsən Xan: Məsələ olduqca çətin məsələ
Ölkəni quldur, qaçaq almış ələ
Koroğludur başçıları onların
Qorxusu yox xandan o məl’unların
Yığmışdır başına quldurdan, oğrudan
Qorxunc bir təhlukə olmuşdur doğrudan
Tezliklə biz gərək bir çarə eyləyək
Koroğlunu öldürmək, məhv etdirmək!

Ehsan Paşa: Göndərək Koroğlunu tutmaq üçün min nəfər!
O məl’unu tutub gətirsin müxtəsər.
1-ci Ə’yan: Lazım olmaz min nəfər, beş yüz kifayət edər
Məncə beş yüz olsa da bəs, min nəfər əbəs
2- ci Ə’yan: Burda müşkul bir iş yox
Gərək Koroğlunu məhv edək!
Təlxək (gülür): Ha, ha, ha, ha, ha, ha, ha, ha
Həsən Xan: Təlxək!
Ehsan Paşa: Ehtiyatla iş görmək gərək
Güclü qoşun göndərmək gərək
Koroğlunu məhv etmək, öldürmək!
İbrahim Xan: Sərkərdələr getsin olu məhv eləsinlər
Bu xalqa dərs olsun
Düşmənə bir zərbə çalsın bir əsər qalmasın
1-ci Ə’yan: Sur’ətlə getmək, tutmaq, onu tutub məhv etmək
1-ci, 2-ci Ə’yan, Ehsan Paşa, Həsən Xan:

Onu öldürmək, məhv etmək, məhv etmək, öldürmək!

Təlxək (gülür): Ha, ha, ha, ha, ha, ha, ha, ha
Həsən Xan: Təlxək, bu nə gülməkdir?
1-ci Ə'yan: De görək sən bir
Ehsan Paşa: Bu nə gülməkdir?
İbrahim Xan: Bu nə estehza?

Təlxək: Axı necə mən gülməyim bu cür axmaq sözlərə
Dəli edib Koroğlu, salıb sizi dizlərə
Koroğlunun üstünə göndərirsiz min əskər
Amma onu tutmağa kifayətdir bir nəfər
Hamı: Bir nəfər?
Təlxək: Bir nəfər!
Hamı: Bir nəfər?
Təlxək: Bir nəfər!

Koroğlunun bir atı var
Koroğlunun bir atı var
Qırat deyərlər adına
Qırat deyərlər adına
Qırat yaman gündə yetər
Qırat yaman gündə yetər
Koroğlunun imdadına
Koroğlunun imdadına
Koroğlunun imdadına, hey!
Koroğlunun imdadına
Koroğlunun imdadına!
Bir nəfər igid gərək
Bir nəfər igid gərək
Atın oğurlasın onun
Atın oğurlasın onun
Qırat gəlsə özü gələr
Qırat gəlsə özü gələr
Qıratın fəryadına
Qıratın fəryadına
Qıratın fəryadına, hey!
Qıratın fəryadına
Qıratın fəryadına!
Bura gəlcək tutun onu
Bura gəlcək tutun onu
Bağlayın əl əyağın
Bağlayın əl əyağın
Bu kələk yaxşı kələk
Bu kələk yaxşı kələk
Afərin ustadına
Afərin ustadına
Afərin ustadına, hey!

Afərin ustadına
Afərin ustadına!
Ha, ha, ha, ha, ha, ha!

Ehsan Paşa: Dəlxəkdəki yox həya üzündə
Lakin çox ağıllıdır sözündə
Tək bircə nəfər gedərsə bəsdir,
Qırat gətirilsə cəng əbəsdir
1- ci Ə'yan: Çox doğru danışdı burda dəlxək
At gəlsə gələr Koroğlu bişək
2- ci Ə'yan: Atsız yaşamaz Koroğlu bir an
Dönməz o yəqinki Qıratından

Həsən Xan: Hər kimsə Koroğlu səngərindən
Qıratı tutub gətirsə məndən
Ən'am alacaq, böyük bir ən'am!
Kimdir?
Kimdir bu işə verən sərəncam?
Həmzə: Bir şərtilə mən gedib gətirrəm.
Həsən Xan: Qəlbin nə istəiyrsə verrəm.
Həmzə: Hər əmrin olursa hazıram mən
Qorxmam, gedərəm Nigarı versən
Müddətdir mən aşiqəm Nigara
Mən tapmamışam bu dərdə çarə
Hər əmrin olursa hazıram mən
Qırat gələcək Nigarı versən!
Həsən Xan: Verdim, sözüm üstə durmuşam mən
Toy başlanacaq Qırat gəlirkən
Çağırın Nigarı!
(Nigarı gətirirlər)
Möhtərəm paşa, indi siz bir baxın o göz, o qaşa!
Ehsan Paşa: Bəh, bəh! Üzündə var bahar bu qızın
Yolunda can qoymaq yarar bu gızın
Bəh, bəh! bəh, bəh!
Həsən Xan: Həmzə bəy özü bir böyük qəhrəman
Qıratın dalınca gedir sabahdan
O səni istəyir, mən də raziyam
Qıratı gətirsə iş olsun tamam!
Mərhəmətli paşa buyurun gedək
Dostluğumuz üçün kəsək duz çörək!
(Hamı çıxıb gedir. Nigar Poladla qalır)

Nigar (Polada): Polad! Eyvazı tap gətir.
Amandır, tez ol!
Tez ol, əhvalım yamandır!
Polad: Bu sa'ət
(Polad gedir)

Nigar: Mən iztirab içindəyəm,
Mən iztirab içindəyəm,
Ağır əzab içindəyəm.
Gərək kəsək o əlləri bu həyasız, bu həyasız xanlardan
Bir gün azad ola insan, insan, insan

Nigarın ariyası:
Hanı o günlərim
Səfalı dəmlərim
Yazıq Nigar, yazıq Nigar
Bütün bahar, əsirikən bu evdəsən, nə sevgi var, nə yar!
Yox ahi zarımı
Eşitdirən yara
Keçirdiyim həyat
Gecəm kimi qara
Dedim gələr bahar
Olar yanımda yar
O yarımdan məni
Ayırdı ruzigar
Qəfəsdədir Nigar
Qəfəsdədir Nigar
Nə bir nəfər
Kömək verən
Nə dindirən, nə rəhm edən mənə!
Bu eşqi bu məhəbbət
Əsiri dami zülmət
Bu dərdi qəm bu möhnət
Bu ayrılıq bu firqət
Bütün düşüncə həsrət
Yazıq Nigara qismət.

(Eyvazla Polad daxil olurlar)

Nigar (Eyvaza): Eyvaz! Amandır, Eyvaz, durma get Rövşənin yanına.
Dayanmadan gedib xəbər ver ona
Keçəl Hamzə gəlir Qıratı çalsın
Əvəzində xandan Nigarı alsın!
Eyvaz: Həmin sa'ət yola düşüm
Qanad açıb uçum gedim
Nigar, Eyvaz, Polad: Zəfər bizim! Zəfər bizim! Zəfər bizim olsun, olsun!

## ÜÇÜNCÜ PƏRDƏ

Koroğlunun qalası. Camaat, arvad, kişi Koroğlunun səfərdən gəlməyimə müntəzirdirlər və onu qarşılamağa hazırlaşırlar.

Qocalar: Çənlibel ölkəm
Hər yeri möhkəm, möhkəm

Quş keçə bilməz bu səngərlərin üstündən
Qəsd edə bilməz bu yerlərə heç bir düşmən
Çənlibel ölkəm
Hər yeri möhkəm, möhkəm
Quş keçə bilməz bu səngərlərin üstündən
Qəsd edə bilməz bu yerlərə heç bir düşmən
Qızlar: Çənlibel ölkəm
Hər yeri möhkəm, möhkəm
Quş keçə bilməz bu səngərlərin üstündən
Qəsd edə bilməz bu yerlərə heç bir düşmən
Qəhrəmanlar yurdu Çənlibel!
Xor 1, 2, 3, 4: Qəhrəmanlar yurdu Çənlibel
Basılmaz bir ordu Çənlibel, Çənlibel, Çənlibel!
Qəhrəmanlar yurdu Çənlibel
Basılmaz bir ordu Çənlibel,
Xor 2, 4: Çənlibel, Çənlibel!
Xor 1, 3: Məskən saldıq Çənlibeldə, hey!
Xor 2, 4: Çənli, Çənli, Çənlibeldə, hey!
Xor 1, 3: Düşmən vurduq Çənlibeldə, hey!
Xor 2, 4: Çənli, Çənli, Çənlibeldə, hey!
Xor 1, 3: Əl bir olduq Çənlibeldə, Çənli, Çənli, Çənli, Çənli, Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, hey!
Xor 2: Hey! hey!
Xor 4: Çənlibeldə, Çənlibeldə
Xor 1, 3, 4: Çənlibeldə, Çənlibeldə
Xor 1, 3: Hey!
Xor 4: Çənlibeldə
Xor 1, 3, 4: Çənlibeldə
Xor 1, 3: Hey!
Xor 4: Çənlibeldə
Xor 1, 3: Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, Çənli, Çənli, Çənlibeldə, hey!
Koroğlu!
Vurdu, yıxdı, qırdı, tökdü xan paşaları
Azad etdi
Xor 4: Azad
Xor 1, 3: Yoxsulları
Xor 4: Yoxsulları
Xor 1, 2, 3: Qurtardı
Xor 1, 2, 3, 4: Qəmdən
Xor 1, 2, 3: Dərddən
Xor 1, 2, 3, 4: Qəmdən
Xor 2, 4: Hey!
Xor 1, 3: Zalım xanların zülmündən
Zalım xanların zülmündən, hey!
Xor 4: Çənlibel ölkəm
Xor 2: Çənlibeldir
Xor 4: Hər yeri möhkəm, möhkəm
Xor 2: Çənlibeldir

Xor 1, 3, 4: Quş ötə bilməz bu səngərlərin üstündən
Xor 4: Qəsd edə bilməz bu yerlərə heç bir düşmən
Xor 2: Çənlibeldir, Çənlibeldir
Xor 3: Çənlibel ölkəm
Xor 2, 4: Çənlibeldir
Xor 3: Hər yeri möhkəm, möhkəm
Xor 2, 4: Çənlibeldir
Xor 3: Quş ötə bilməz bu səngərlərin üstündən
Xor 2, 4: Çənlibeldir
Xor 2: Hey!
Xor 4: Məskənimiz
Xor 3: Qəsd edə bilməz bu yerlərə heç bir düşmən
Xor 2, 4: Məskənimiz
Xor 4: Məskənimiz
Xor 1: Çənlibel ölkəm
Xor 2: Çənlibeldir
Xor 1, 3: Hər yeri möhkəm, möhkəm
Xor 2: Çənlibeldir
Xor 4: Çən
Xor 1, 3: Quş ötə bilməz
Xor 4: libel
Xor 1, 3: Bu səngərlərin üstündən
Xor 2: Məskənimiz
Xor 4: dir, məskənimiz
Xor 1, 2, 3, 4: Qəsd edə bilməz bu yerlərə heç bir düşmən
Qəhrəmanlar yurdu Çənlibel!
Basılmaz bir ordu Çənlibel, Çənlibel!
Qəhrəmanlar yurdu Çənlibel
Basılmaz bir ordu Çənlibel
Xor 2, 4: Çənlibel, Çənlibel!
(Koroğlu ilə getmiş olanlar)
Xor 1, 3: Məskən saldıq Çənlibeldə, hey!
Xor 2, 4: Çənlibeldə, Çənlibeldə
Xor 1, 3: Düşmən vurduq Çənlibeldə, hey!
Xor 2, 4: Çənlibeldə, Çənlibeldə
Xor 1, 3: Əl bir olduq Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, hey!
Xor 2: Çənli, Çənli!
Xor 4: Çənli, Çənli,Çənlibeldə
Xor 1, 2, 3, 4: Çənlibeldə
Xor 1, 2, 3: Hey!
Xor 4: Çənlibeldə
Xor 1, 3: Çənlibeldə, hey!
Xor 4: Çənlibeldə
Xor 1, 3: Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, Çənlibeldə, hey!
Koroğlu!
(Koroğlu atın üstündə içəri daxil olur)
vurdu, yıxdı, qırdı, tökdü xan paşaları
Xor 4: Xan paşaları

Xor 1, 3: Azad etdi yoxsulları
Xor 4: Xanları yıxdı, xanları yıxdı, xanları yıxdı, xanları yıxdı
Xor 1, 3: Qurtardı dərddən, qurtardı qəmdən, dərddən, qəmdən
Xor 4: Xanları yıxdı, xanları yıxdı, xanları yıxdı, xanları yıxdı, xanları yıxdı, xanları yıxdı
Xor 1, 3: Zalım xanların zülmündən
Zalım xanların zülmündən, hey!

Koroğlu: Darbadağın eyləmişəm xanın qoşunlarını
Ölkəsini dağıtmışam
Almışam hər varını
Talan edib qoymamışam daş üstündə daşını
Həsən xanlar ala bilməz Koroğlunun başını!

Mərd igidlər nə'rə çəksin davada!
Xor (cama'at qışqırıqla): Hey! hey!
Koroğlu: Şikar etsin tərlən kimi havada!
Xor: Havada, havada, havada, havada
Koroğlu: Dövran etsin misri qılınc davada!
Xor: Havada, havada, havada
Koroğlu: Bağırsaq cəmdəyə dolanmaq gərək!
Xor: Hey, hey! hey, hey!
Koroğlu: Dövran etsin misri qılınc davada
Bağırsaq cəmdəyə dolanmaq gərək!

Koroğludur içən düşmən qanını
Xor: Hey, hey!
Koroğlu: Nə'rəsindən davalarda tanını
Xor: Tanını, tanını, tanını
Koroğlu: Qırın vəzirlərin, tutun xanını!
Xor: Tanını, tanını, tanını, tanını
Koroğlu: Leş leş üstə bir bir qalanmaq gərək!
Xor: Hey, həy! hey, hey!
Koroğlu: Qırın vəzirlərin, tutun xanını!
Leş, leş üstə bir bir qalanmaq gərək!
Xor: Koroğlusan
Mərd oğlusan
Koroğlusan
Mərd oğlusan
Sən sən məzlum xalqın dostu
Xanların qatil düşməni
Çox sağ ol!

(Koroğlu özü ilə gətirmiş olduğu bir dəstə yoxsul Gürcü və Ermənilərə yaxınlaşıb onları öz adamlarına təqdim edir)

Xanlarından zülmü görmüş Ermənilər Gürcülər
Başlayıb üsyanə bizlərdən gəlib yardım dilər
Ermənilər, Gürcülər, Kürdlər bu miskin Ləzgilər!

Mən gətirdim bu cəma'ət yoldaş olsun sizlərə
Xan cəfəsından qaçanlar qoy qoşulsun bizlərə
Əlbir olsunlar bu yoxsullar bizimlə bir kərə
Müttəfiq qüvvətlə zərbə endirək düşmənlərə
Qan içən düşmənlərə
Məhv edən düşmənlərə
Zülm edən düşmənlərə

Xor 1, 3: Hər kəs olsa yoxsuldan
Xor 4: Hər kəs olsa yoxsuldan
Xor 1, 3: Qaçmiş olsa bəy xandan
Xor 4: Qaçmış olsa bəy xandan
Xor 1, 3: Gəlsin hər nə məzlum var
Xor 1, 3, 4: Gəlsin!
Xor 1, 3: Çənlibeldə yeri var
Xor 1, 3, 4: Gəlsin! Gəlsin hər nə məzlum var
Xor 1, 3: Gəlsin, Çənlibeldə yeri var, hey!

Koroğlu: Çənlibeldə zülm olmaz
Burda xan bəy yaşamaz
Azad olmaq istəyən gəlsin
Rahət olmaq istəyən gəlsin
Azad olmaq istəyən gəlsin
Rahət olmaq istəyən gəlsin
Koroğlu, Xor 1, 3: Burda hər kəs qardaşdır
Xor 2, 4: Hey, qardaşdır qardaş, hey
Koroğlu, Xor 1, 3: Bir birilə yoldaşdır
Xor 2, 4: Hey, yoldaşdır yoldaşdır
Koroğlu, Xor 1, 3: Beylə bir söz verdik
Əhdi peyman etdik
Mülkədara qarşı, zülmükara qarşı, hiləkara qarşı, hey!
Xor 1, 2: Saldırmaq, məhv etdirmək!
Koroğlu: Məhv etdirmək
Xor 1, 2: Cümlə mülkədarı, cümlə zülmükarı cümlə hilədarı məhv etdirmək!

(Həmzə bəy cındır paltar geyinmiş dilənçi halında özünü səhnəyə salır. cama'at onunla marağlanır)

Həmzə Bəy: Yandım allah, yandım allah
ver bir içim su!
Xor 1: Kimdir bu?
Xor 2: Kimdir bu?
Xor 1: Kimdir bu?
Xor 2: Kimdir bu?
Həmzə Bəy: Mən yazığam siz mənə rəhm edin,
Mən fağıram, siz mənə rəhm edin,
Bir kəsim yox, siz mənə rəhm edin,
Mənə gəlin rəhm edin, rəhm edin.
Xor 1, 2: Rədd ol get!

Həmzə Bəy: Yazığam!
Xor 1, 2: Rədd ol get!
Həmzə Bəy: Yazığam!
Xor 1, 2: Hiləkar rəzil Adam! Rədd ol get!
Həmzə Bəy: Yazığam!
Xor 1, 2: Rədd ol get!
Həmzə Bəy: Yazığam!
Xor 1, 2: Bəd süfət rəzil adam!
Həmzə Bəy: Mən yazığam, rəhm edin siz mənə
Gəlin mənə rəhm edin bir kərə,
Mən fağıram…
(Həmzəni vurmaq istəiyrlər)

Koroğlu: Dayan!
Kimsən, nəçisən? sən'ətin nədir?
Bura belə gəlməkdə məqsədin nədir?
Həmzə Bəy: Sən'ətim atlara baxmaqdır
Bu yolda çox mahirəm
Xanların zülmündən qaçmışam sənə
Sənə mailəm
Koroğlu: Aparın bunu tövləyə
İş görsün orda fəraqət
Hər gün, hər gecə Qıratı bəsləsin eyləsin rahət.
Xor 1, 2: Rövşən, sən əbəs yerə eylədin bunu qəbul
Səndən çıxmayan bir iş
Ehtiyatsız bir üsul,
Bəlkə xan tərəfindən gəlmiş olsun bu fizul?
Koroğlu: Casus olsaydı əgər
Verərdi xəbər Nigar
Bunda olsaydı xətər
Nigar eylərdi xəbər
Gözləyir o yar məni
Gözləyir Nigar məni
Düşdü yadıma Nigar
Getdi əldən ixtiyar
Sən çək orda min cəfa
Biz görək burda səfa
Ax Nigar!

Koroğlunun Ariyası:
Sevdim səni mən, ey Nigarım
Rə'na gözəlim, şən baharım
Səvdim səni canan,
Lakin zülmükar xan
Xalqın qatil düşməni etmişdir əsir səni
Ondan müşgüldür ayrı düşmək
Lakin çətindir bu görüşmək
Oldum bu yolda mən

Öz özümə düşmən
Ayrı düşdüm səndən mən, ayrı düşdüm
Səndən mən hey
Səndən mən hey
Səndən mən hey
Səndən…
Dönmərəm bu yoldan
Xof etmərəm xandan
Məqsəddən keçmərəm
Ölərəm
Keçərəm canımdan
Ölsün düşmən bu üsyandan
Qurtarmasın yaxasın
Məhv olsun, qəhr olsun ka’inat!
Onda nə zövq var nə həyat
Bu aləm sevgilər, məhəbbət yaratsın, yaratsın, hey!
Sevdim səni mən ey Nigarım
Rə’na gözəlim şən baharım
Sevdim səni yarım
Sən sən mənim canım
Olmaz özgə sevgilim səndən ayrı, səndən ayrı, səndən ayrı düşdüm Nigar!

Xor: Gəlsin düdükçülər
Çıxsın oyunçular!
Şadlıq edək bu gün
Həp Çənlibelçilər

**(RƏQS)**

(Axşam olur, hava qaranlıqlaşır, hamı öz əhdinamələrini oxumağa yığılır)

Əhdinamə himni:
Koroğlu, Xor 1, 3: Əhdimiz üstə durduq
Burda biz qardaş olduq
Xanlara üsyan tədbirini biz qurduq, qurduq, qurduq!

(Yağış yağmağa başlayır)
(Hamı dağılışır)
(İldırım)
(Göy guruldayır)
(İldırım)
(Göy bərk guruldayır)
(İldırım)
(Göy bərk guruldayır)
(Həmzə bəy gizlincə çıxır)

Həmzə Bəy: Qırat mənimdir, yansın Koroğlu!
Həm Nigar mənimdir, yansın Koroğlu!

Ha, ha, ha, ha, ha, ha, ha!
(Qıratı minib gözdən itir)

(Əhvalatdan xəbərdar olan camaat həyəcan icində səhnəyə dolur)

Xor 1: Qırat oğurlandı!
Xor 2: Qırat oğurlandı!
Xor 1: Qırat oğurlandı!
Xor 2: Qırat oğurlandı!
Xor 1, 2: Alçaq, xa'in insan!
Xor 1: Qırat oğurlandı!
Xor 2: Qırat oğurlandı!
Xor 1: Qırat oğurlandı!
Xor 2: Qırat oğurlandı!
Xor 1, 2: Yırtıcı bir heyvan!
Xor 1: Qırat oğurlandı!
Xor 2: Qırat oğurlandı!
Xor 1: Qırat oğurlandı!
Xor 2: Qırat oğurlandı!
Xor 1, 2: Alçaq, xa'in insan!
Koroğlu, Xor 1, 2: Yırtıcı, qanmaz heyvan!
Xor 1, 2: Heyvan!
Koroğlu, Xor 2, 4: Heyfa Qıratdan!
Xor 1, 3: Heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa
Koroğlu, Xor 2, 4: Heç çıxmaz yaddan
Xor 1, 3: Heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa
Koroğlu, Xor 2, 4: Apardı səni
Xor 1, 3: Heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa
Koroğlu, Xor 2, 4: İnsafsız düşmən
Xor 1, 3: Heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa
Koroğlu, Xor 2, 4: Hey amansız düşmən
Xor 1, 3: Heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa, heyfa
Koroğlu, Xor 2, 4: Qırat!
Xor 1, 3: Hey!
Koroğlu, Xor 1, 3: Qırat! Qırat!

## DÖRDÜNCÜ PƏRDƏ

Səhnə Həsən xanın salonunu göstərir. Həsən xan, Ehsan Paşa, bütün Ə'yanlar və dərbar qadınları hazır olub, Qıratın Həmzə bəy tərəfindən gətirilməsi münasibəti ilə şadlıq məclisi düzəltmişlər.

Xanəndə qız: Saqi
Be nure bade bərəfruz came ma
Saqı
Be nure bade bərəfruz came ma
Motreb
Bequ ke kare cəhan şod be kame ma
Motreb

Bequ ke kare cahan şod be kame ma
Be kame ma
Aman ey, aman ey, aman ey!
Xor: Yarım ey, yarım ey, yarım ey!
Xanəndə qız: Aman ey, aman aman
Be kame ma, be kame ma
Xor: Əhsən qara saçlara
Qara qaşlara
Qara gözlərə
Qara xallara
Məcnun kimi yar məni saldı çöllərə
Saldı dillərə
Yaman hallara, yaman hallara, yaman hallara
Xanəndə qız: Madər piyale əkse roxe yar dideim
Ey bixəbər
Ze ləzzəte şur bi modame ma
Ey bixəbər
Ze ləzzəte şur bi modame ma
Modame ma
Aman ey, aman ey, aman ey!
Xor: Yarım ey, yarım ey, yarım ey!
Xanəndə qız: Aman ey, aman aman
Be kame ma, be kame ma
Xor: Əhsən qara saçlara
Qara qaşlara
Qara gözlərə
Qara xallara
Məcnun kimi yar məni caldı çöllərə
Saldı dillərə
Yaman hallara, yaman hallara, yaman hallara

**(RƏQS)**
(Rəqqasələr çıxırlar)

Xor 1: Gözəl xanım
Xor 2: Gəl bəri dilbər
Xor 1: Sən mənim canım
Xor 2: Gəl bəri dilbər
Xor 1: Naz eləmə
Xor 2: Gəl bəri dilbər
Xor 1: Bizimlə sən bir şirin söhbət saz elə
Xor 2: Saz elə
Xor 1: Kərəm qıl gəl lütfünü bizdən az eləmə
Sən bir gülsən, gəl xəzanımı yaz elə
Xor 1: Gözəl xanım
Xor 2: Gəl bəri dilbər
Xor 1: Sən mənim canım
Xor 2: Gəl bəri dilbər

Xor 1: Naz eləmə
Xor 2: Gəl bəri dilbər
Xor 1: Bizimlə sən bir şirin söhbət saz elə
Xor 2: Saz elə
Xor 1: Kərəm gıl gəl lütfünü bizdən az eləmə
Sən bir gülsən, gəl xəzanımı yaz elə
Naz elə bala
Saz elə bala
Yaz elə bala, hey!
(Arvadlar çıxıb gedirlər)

(Koroğlu başqa bir libasda qəflətən içəriyə daxil olur)

Həsən Xan: Bu kimdir, nəçidir?
Ehsan Paşa: Aşığa bənzəyir
Həsən Xan: İznisiz girdin sən tez içəri
Salam vermədin nədən ötəri?
Koroğlu: Salam verdim, salamım almadılar
(Kənara): Salam kəssin bəydə ya xanıda
Həsən Xan: Aşıqsansa əgər hünərini göstər
Koroğlu: Göstərim, izin verin
Çünki ondun dəyirmançı
Çağır gəlsin dən Koroğlu!

(Koroğlu sazını çalır)
Balam ey!
Səni gördüm aşıq oldum dərdə saldım canımı
Ala gözlər, dadlı sözlər
Qara qaşlar, işvə nazlar
Can alan yar tokdü nahəq qanımı
Nədir əmrin tacidarım sərvərim!
Nazli yarım, gülüzarım, işvəkarım hey!
Nədir əmrin qəddi rə'na dilbərim!

Gecə gündüz ayrılıqdan yandım hicran oduna!
Səni görsəm nazlı yarım
Gedər əldən ixtiyarım
Səni görsəm gülüzarım, iftixarım, nazlı dilbərim hey!
Gərək aşıq yar yolunda qalmasım can dərdinə!
Ala gözlər, dadlı sözlər
Qara qaşlar, işvə nazlar
Can alan yar tökdü nahəq qanımı!
Nədir əmrin tacidarım sərvərim!
Nazlı yarım, gülüzarım, işvəkarım hey!
Nədir əmrin qəddi rə'na dilbərim!
Gecə gündüz hey!
Gecə gündüz ayrılıqdan yandım hicran oduna!
Gecə gündüz ayrılıqdan yandım hicran oduna!

Əni görsəm nazlı yarım
Gedər əldən ixtiyarım
Səni görsəm gülüzarım, iftixarım, nazlı dilbərim hey!
Gərək aşıq yar yolunda qalmasın can dərdinə!
Ala gözlər, dadlı sözlər
Qara qaşlar, işvə nazlar
Can alan yar tökdü nahəq qanımı
Nədir əmrin tacidarım sərvərim!
Nazlı yarım, gülüzarım, işvəkarım hey!
Nədir əmrin qəddi rə'na dilbərim!

Xor: Afərin!
Həsən Xan: Aşıq olmağına aşıqdır
Ehsan Paşa: Aşıq olmağına aşıqdır
Xor 1: Gözəlləmə söylə!
Xor 2: Gözəlləmə söylə!
Koroğlu: Koroğlunun Qıratını gözəllərəm mən çox
(kənarda) görüm Qırat burdadır ya yox?
Həsən Xan: Koroğlunu tanıyırsan?
Koroğlu: Tanıyıram
Həsən Xan: Qıratını tanıyırsan?
Koroğlu: Tanıyıram
Həsən Xan: Sən indi ki tanıyırsan bir gözəlləmə söylə, söylə!

Koroğlu: Eşitsin xanlar paşalar!
Eşitsin bəylər ağalar!
Eşitsin xanlar paşalar!
Eşitsin xanlar paşalar!
Eşitsin bəylər ağalar!
Eşitsin arif atalar!
Eşitsin şanın Qıratın
Eşitsin şanın Qıratın
Eşitsin şanın, eşitsin şanın, eşitsin şanın Qıratın!
Qanadlı quşdur at deyil
Bir ildırımdır elə bil
Başında teldir Qıratın
Eşitsin şanın Qıratın
Eşitsin şanın Qıratın
Eşitsin şanın, eşitsin şanın, eşitsin şanın Qıratın

Həsən Xan: Aşıq, tə'rifini etdiyin Qırat Koroğludan bizə edilib sövqat
Neçə gündür ki at töyləmdə yatır
Yeyir, içir, yatır, və şıllaq atır
(Gulur) ha, ha, ha, ha, ha, ha
Koroğlu: Ola bilməz bu iş, sən allanmısan
Ayrı düşməz Qırat çün Koroğludan
Həsən Xan: Polad, Qıratı get çıxar töylədən
Onda görək kimdir adam aldadan

Aldatmış olsa məni Həmzə bəlkə
Doğratdıraram onu tikə tikə
Ehsan Paşa: Aşıq, bir şikəstə!
Koroğlu: Oxuram başüstə, başüstə.

Nazlı yarım vəslə çatdım keçdi hicran günləri!
Nazlı yarım vəslə çatdım keçki hicran günləri
Aşiqəm mən kuyi dilbər, vəsli canan istərəm
Vəsli canan, vəsli canan, dərdi hicran, vəsli canan, zülfi reyhan, qəlbi viran, dil pərişan günləri!
Bir qanatsız bülbüləm mən
Dərdə düşmüş sünbüləm!
Bir qanatsız bülbüləm mən
Dərdə düşmüş sünbüləm
Aşiqəm mən kuyi dilbər, vəsli canan istərəm
Vəsli canan, vəsli canan, dərdi hicran, vəsli canan, zülfi reyhan, qəlibi viran, dil pərişan günləri!

(Bu halda Həmzə bəy içəri daxil olub, oxuyan aşığın Koroğlu olduğunu tanıyır, tez gedib xana xəbər verir)

(Koroğlunu tutub əl ayağını bağlayırlar)

Həsən Xan, İbrahim Xan, Xor: Yaxşı, yaxşı bağla qolların!
Ehsan Paşa, Həmzə, Xor: Möhkəm örtün qaçmaq yolların!
Həsən Xan, İbrahim Xan, Xor: Hər nə var silahını alın!
Ehsan Paşa, Həmzə, Xor: Xənçərini gordasın salın!
Xor: Alın onun bütün malın!
Yanında beş nəfər qalın!

Həsən Xan: Axtarırdım səni göydə
Yerdə düşdün əlimə
Əmr edərəm doğrasınlar səni dilim dilimə!
(Təntənə ilə) səfil rə'iyyət, rəzil kəndçi
Yox eylərəm sizi, qıraram
Bu kimi xa'in əgər min olsa
Minin də boynun vuraram!
Koroğlu, Koroğlu, Koroğlu, ha, ha, ha, ha, ha, ha, ha, ha!
Koroğlu, Koroğlu, Koroğlu, ha, ha, ha, ha, ha, ha, ha, ha!
Onu sən bil ki mən məmləkətin xanıyam
Mənə kəc baxsa gər kəndçinin düşməniyəm
Verə bilməz mənim keyfimə heç bir məlal
Nə koroğlu, nə karoğlu, nə şiloğlu, nə laloğlu!
Axtarırdım səni göydə
Yerdə düşdün əlimə
Əmr edərəm doğrasınlar səni dilim dilimə!

Ehsan Paşa, Həsən Xan, İbrahim Xan, Xor:
Afərin Həmzə bəy, sözlərin doğru çıxdı, afərin!
Rədd olar, məhv olar bir kərə başımızdan bu bəla!

Həsən Xan: Nigarı verdim sənə mən, Həmzə
Nigar sənindir al
Halal malındır
Nigar gözəldir
Ədası qəmzə
Nigar sənindir al
O yar sənindir!

Koroğlu və Xor: Nigar gözəldir
Ədası qəmzə
Xor: Nigar sənindir al
O yar sənindir
Koroğlu: Nigar sənindir al!
Xor: Nigar sənindir al!
Koroğlu: Nigar sənindir al!
Xor: Nigar sənindir al!
Koroğlu: Nigar sənindir al
Xor: Nigar sənindir al!
Koroğlu və Xor: Sevgili nazlı dilbərim!

Xor: Gəlsin Nigar tez, gəlsin Nigar!
Gəlsin Nigar tez, gəlsin Nigar!

Nigar (daxil olur): Ax! Bu nə müsibət!
Koroğlu: Elədin sən xəyanət!

Həsən Xan: Nigar, Həmzə bəyin göstərdiyi şanlı rəşadət bizi şad eylədi,
Verdi sənə fəxri sə'adət

Təlxək (daxil olur): Nay, nay, nay, nay, nay
Nay, nay, nay, nay, nay
Nay, nay, nay, nay, nay
Nay, nay, nay, nay, nay
Nay, nay, nay, nay, nay
Nay, nay, nay, nay!
Mən demədim bəsdir ona bir nəfər
Getsə kifayətdi ömər ya səfər
Mən deyən oldu ənədə müxtəsər
Bəxtəvərəm, bəxtəvərəm, bəxtəvər!
İstədilər göndərələr üstünə onmin pələng
Mən sə dedim bəsdir əgər getsə keçəl Həmzə bəy

Fərraş (daxil olur): Xan sağ olsun!
Mahaldan gətirdilər bir nəfər
Bizlərdən Koroğluya aparırmış xəbərlər
Ehsan Paşa: Kim göndərirmiş onu?
Fərraş: Əsla deməz, gizlədir
Nəqədri versən əzab eləsə də dinmir, demir

(Eyvazı gətirirlər, Nigar qardaşını tanıyıb qışqırır)
Nigar: Ah!
Həsən Xan: Səni kim göndərib, de görüm alçaq?
Eyvaz: vurun, öldürün demərəm ancaq
Həsən Xan: Cəlladı çağırın!

(Cəllad daxil olur, Nigar irəli yüyürüb qardaşını müdafiyəyə hazır olur)
Nigar: Qoyun mən deyim
Kimin göndərdiyin sizə söyləyim.
Xor: Kimimiş göndərən?
Nigar: Göndərən mənəm!
Bunu anlayın
Mən sizə düşmənəm!
Xor: Belə, bəs belə, bəs belə, belə, belə?
Nigar: Bir görün mən sizə nə deyəcəyəm hələ
Bir yığın zülmükar
Bir yığın cəllad,
Tə'sir etməz sizə
Bu qədər fəryad.
Tə'sir etməz sizə
Bu qədər fəryad, fəryad!
Sərxoş etmiş sizi
Zülmün nəş'əsi
Narahət eyləməz
Məzlum naləsi,
Narahət eyləməz
Məzlum naləsi.
Bir gün gələcəkdir
İntiqam günü kəsəcək zalımın başının üstünü
Bu gün əzilənlər əzər sizləri
Xan zülmündən qurtararlar bizləri
Qurtarar bizləri!

Xor: Rədd edilsin, məhv edilsin, öldürülsün xa'inə
Qoy cəza görsün xəyanət eyləmişdir xa'inə!
Həmzə Bəy: Ah!
Qəlbimdəki möhübbət döndü oldu bir nifrət!
Öl xa'inə! ah!
(Həmzə bəy xəncərini çəkib Nigarın üstünə yüyürür. Bu əsnada Koroğlu kəndiri qırıb, azad olur və Yanında duran qaraulçunun əlindən toppuzu alıb, bərk zərbə ilə Həmzə bəyin başından vurub öldürür. Ara qarışır, hamı özünü itirir. Koroğlu fırsətdən istifadə edərək bayıra çıxır və Qıratı minib gözdən itir.)

Ə'yanlar: Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!

Həsən Xan: Ay, tutun! Qoymuyun! Tez Koroğlunu! Ay!
Xor: Çay! tez!
Həsən Xan: Ay, tutun! Qoymuyun! Öldürün olu!
Xor: Tez!
Xor: Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ay, tutun! Qoymuyun!
Ehsan Paşa: Ay, tutun! Qoymuyun! Tez Koroğlunu!
Hamı: Tez! tez!
Ehsan Paşa: Tez! Tutun, qoymuyun!
Öldürün onu!

(İbrahim xan Poladın qolundan tutub darta darta içəri qətirir)
İbrahim Xan: Xan sağ olsun, Polad verdi Qıratı.
Mindirib Koroğlunu tez qaçırtdı.
Həsən Xan: Bu üç xa'inin də kəsilsin başı!
Nigar və Polad: Koroğlu sağ olsun!
Xor: Cəzaya verilsin qohum qardaşı!

## BEŞİNCİ PƏRDƏ

Sübh vaxtıdır. E'lan meydanı. Carçılar car çəkib üç nəfərin başı kəsiləcəyini camaata e'lan edirlər. Camaat yavaş-yavaş meydana yığılır.

1-ci Carçı: Ya! Əyyühənnas!
Ya! Əyyühənnas!
Bu gün meydanda kəsilir üç baş!
2-ci Carçı: Ya! əyyühənnas!
Ya! əyyühənnas!
Bu gün meydanda kəsilir üç baş!
3-cü Carçı: Ya! əyyühənnas!
Ya! əyyühənnas!
Bu gün meydanda kəsilir üç baş!
Xor 1: Gündə, gündə baş kəsilməz!
Xor 2: Gündə, gündə baş kəsilməz!
Xor 3: Gündə, gündə baş kəsilməz!
Xor 4: Gündə, gündə baş kəsilməz!
Xor 1: Gündə, gündə baş kəsilməz!
Xor 2: Gündə, gündə baş kəsilməz!
Xor 3: Gündə, gündə baş kəsilməz!
Xor 1, 2: Rədd olsun, batsın zalım xan
Rədd olsun bəy, rədd olsun xan
Rədd olsun bəy, rədd olsun xan
Rədd olsun bəy, tədd olsun xan!

(Həsən xan, Ehsan Paşa, İbrahim xan və Ə'yanlar daxil olurlar)

Həsən Xan, İbrahim Xan, Ə'yanlar:
Olsa xa'in xana hər kəs
Ya ölümdür ya da məhbəs
Məhv edilsinlər!
Xalq 1, 2: Gündə bir baş
Gündə bir qan
Qatil insan
Zalım insanlar
Rə'iyyət təngə gəldi
Məhv edildi
Talan edildi
Həsən Xan, İbrahim Xan, Ə'yanlar:
Olsa xa'in xana hər kəs
Ya ölüm var ya da məhbəs
Bir də sizdən çıxmasın səs
Oğlu bidinlər!
Xalq 1, 2: Gündə bir baş
Gündə bir qan
Qatil insan
Vəhşi insan
Bu rə'iyyət təngə gəldi
Məhv edildi
Talan edildi!

Həsən Xan, İbrahim Xan, Ə'yanlar:
Gətir o məl'unları
Vurulsun boyunları
Qəzəbdir dutan onları
Cəzalansınlar!
Xalq 1: Gəl rəhm et, ey xan, bu cəvanlara
Xor 2: Gəl rəhm et, gəl rəhm et
Xor 1: Rəhm et bunlara, öldürmə
Xor 2: Gəl rəhm et, gəl rəhm et
Xor 1: Bu yazıqların keç günahından
Xor 2: Bunları öldürmə, gəl rəhm et
Xor 1: Rəhm et bunlara, öldürmə
Xor 2: Gəl rəhm et, öldürmə
Xor 1: Gəl rəhm et ey xan bu xəvanlara
Xor 2: Rəhm et öldürmə, gəl rəhm et
Xor 1: Rəhm et bunlara, öldürmə
Xor 2: Gəl rəhm et, gəl rəhm et
Xor 1: Bu yazıqların keç günahından
Xor 2: Rəhm et, öldürmə, gəl rəhm et
Xor 1: Rəhm et bunlara, öldürmə
Xor 2: Gəl rəhm et, öldürmə, rəhm et, öldürmə
Xor 1: Gəl rəhm et ey xan bu cəvanlara
Xor 2: Gəl rəhm et, gəl rəhm et
Xor 1: Rəhm et bunlara, öldürmə

Xor 2: Gəl rəhm et, rəhm et bunlara
Xor 1: Bu yazıqların keç günahından
Xor 2: Bunları öldürmə, gəl rəhm et
Xor 1: Rəhm et bunlara, öldürmə
Xor 2: Gəl rəhm et, rəhm et
Xor 1: Gəl rəhm et ey xan bu cəvanlara
Xor 2: Bunları öldürmə, gəl rəhm et
Xor 1: Rəhm et, bunlara, öldürmə
Xor 2: Gəl rəhm et, rəhm et bunlara
Xor 1: Bu yazıqların keç günahından
Xor 2: Öldürmə, gəl rəhm et, gəl rəhm et
Xor 1, 2: Rəhm et bunlara, öldürmə!

Həsən Xan, İbrahim Xan, Ə'yanlar:
Etsə hər kəs xanan üsyan
Məhv edilsin vəssəlam!
Xalq 1, 2: Bir gün olsun kütlə coşsun
Sizdən alsın intiqam!
Ehsan Paşa: Bu gündən bircə insan
Xana qarşı etsə üsyan
Ya ölümdür ya da zindan
Əfv edilməz xa'in insan
Verməriz biz bir də fürsət
Çıxsın üsyanlar!
Xəyanətpərvər insanlar
Bu yolsuz oğru, nadanlar
Bu cahil, bu qudurğanlar
Kəsilsin, məhv olunsunlar!
Xəyanət çıxsa bir kəsdən
Əlindən ya dilindən
Məhv edilsin, məhv edilsin, məhv edilsin!
Həsən Xan, İbrahim Xan, Ə'yanlar:
Etsə hər kəs xana üsyan
Məhv edilsin, vəssəlam!
Xalq 1, 2: Bir gün olsun kütlə coşsun
Sizdən alsın intiqam!
İbrahim Xan: Bu gündən bircə insan
Xana qarşı etsə üsyan
Ya ölümdür ya da zindan
Əfv edilməz xa'in insan
Verməriz biz bir də fürsət
Çıxsın üsyanlar
Xəyanətpərvər insanlar
Bu yolsuz oğru nadanlar
Bu cahil bu qudurğanlar
Kəsilsin, məhv olunsunlar!
Xəyanət çıxsa bir kəsdən
Əlindən ya dilindən

Məhv edilsin, məhv edilsin, məhv edilsin
Həsən Xan və Ə’yanlar: Olsa xa’in xana hər kəs
Ya ölüm var ya da məhbəs
Məhv edilsinlər!
Həsən Xan, İbrahim Xan, Ə’yanlar: Etməsinlər bir də üsyan!
Xalq 1, 2: Gündə bir baş! Gündə bir baş!
Bu rə’iyyət təngə gəldi
Məhv edildi, talan oldu!
Zalım!
Zalım, zalım, qatil xanlar, vəhşi xanlar, qanlı xanlar!

Həsən Xan: Sənə mən əmr edirəm İbrahim xan
Bu sa’ətdə gərək boşalsın meydan!
Gedib camaatı qovun hər nə var!
Düzəltsin qoşunlar poladdan hasar!
Divani ədalət qurulsun bu gün!
Boynu vurulsun xa’inlərin bu gün!
Əvvəlcə Nigarın başı kəsilsin!
Xanın ədalətin aləm bilsin
Xor: Zalım!
Zalım, zalım, qatil xanlar, vəhşi xanlar, qanlı xanlar!
İbrahim Xan: Cəllad başı tez ol hökmü et icra!
Ən əvvəl bu işi Nigarından başla!
Xor: Ah yazıq bədbaxt Nigar!
Nigar, Nigar, Nigar
Nigar, onu apardılar başını kəsməyə

Koroğlu: Hey, hey!
(Səhnə arxasından Koroğlunun qışqırığı eşidilir)
(Bu zaman Koroğlu öz adamları ilə qəflətən səhnəyə daxil olub qısa vuruşmadan sonra Nigar, Polad və Eyvazı azad edirlər. Camaat sevinir.)
Xor 1, 2: Afərin! Afərin! Öldür!
Öldür! Öldür! Öldür!
Qoy düşmən ölsün!
Qoy düşmən ölsün! Ölsün!
Ölsün! ölsün! Ölsün! Ölsün!
Zəfər bizimdir!
Nigarı etdin xilas!

Koroğlu: Sevgilim, sevgilim
Ayrı düşdün məndən
Ah Nigarım, gülüzarım
Qanlı düşmən eylədi qəsd
İntiqamın alsın səndən
Uçmuşam quş kimi
Özümü yetirdim.
Nigar: Bu xalqı sən eylədin azad, azad
Xalqa sən olmusan ən əziz qəhrəman, qəhrəman!

Koroğlu: Məni yaşatdı,
Məni böyütdü,
Bu qəhrəman, bu qəhrəman xalqım, yaşa!

**(RƏQS)**

Xor: Nə şənli, şənli bayram
Nə şənli əyyam
Yaşa, yaşa Koroğlu
Qəhrəman, qəhrəman!

**PƏRDƏ**